Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Rusiyanın uşaq ombudsmanı: Məni oğurlamaq istəyiblər

indicə




Mariya Lvova-Belova

Rusiyanın uşaq hüquqları ombudsmanı **Mariya Lvova-Belova** "Vedomosti" qəzetinə müsahibəsində deyib ki, naməlum şəxslər onu bir neçə dəfə oğurlamaq istəyiblər. O, bunu Beynəlxalq Cinayət Məhkəməsinin onun barəsində həbs orderi çıxarması ilə əlaqələndirib.

**"Bir neçə dəfə müxtəlif regionlarda diversiyalar hazırlanıb, hansısa adamları tutublar",** – Lvova-Belova deyib.

Müxbir bunun sui-qəsd cəhdi olub-olmadığı barədə dəqiqləşdirici sual verib.

**“Yox, sui-qəsd deyildi. Onlara sağ lazımam. Məni ələ keçirmək istəyirlər ki, prezidentə qarşı ifadə verim”,** – deyən uşaq ombudsmanı bundan sonra ona şəxsi mühafizə ayrıldığını əlavə edib.

Lvova-Belova təkcə özünə deyil, ailəsinə də təhqir və təhdidlərin gəldiyini vurğulayıb.

AzadlıqRadiosunun rus xidməti yazır ki, Rusiyanın Daxili İşlər Nazirliyi, digər güc strukturları bundan əvvəl Lvova-Belovaya qarşı hər hansı hücum və ya oğurluq cəhdinin qarşısının alınması barədə məlumat yaymayıblar.

2023-cü ildə Beynəlxalq Cinayət Məhkəməsi Rusiya prezidenti **Vladimir Putin** və prezident yanında uşaq hüquqları ombudsmanı Mariya Lvova-Belova barəsində həbs orderləri çıxarıb. Onlar ukraynalı uşaqların Ukraynanın işğal olunmuş ərazilərindən Rusiyaya deportasiyası və qanunsuz köçürülməsində, uşaqların Rusiya ailələrinə və müəssisələrinə məcburi verilməsində ittiham olunurlar. Lvova-Belova isə öz hərəkətləri ilə fəxr etdiyini bildirib.

Ombudsmanın 2022-ci il üzrə fəaliyyət hesabatında bildirilir ki, **“Rusiya Federasiyası Ukrayna və Donbas respublikalarından təxminən 4,8 milyon nəfəri qəbul edib, onların 700 mindən çoxu uşaqlardır”.**

Hesabatda o da qeyd olunur ki, uşaq evləri və sığınacaqlardan 1,5 min uşaq Rusiyaya aparılıb.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur